## Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynovun 2015-ci ilin yekunları ilə bağlı HESABAT MƏRUZƏSİ

(Əvvəli 2-ci səhifədə)

Bildiririk ki, mövcud böhran və maliyyə çətinliklərinə baxmayaraq, cari ildə rayonumuzda bir sıra işlərin görülməsi nəzərdə tutulur. Belə ki, artıq «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» əsas götürülərək yerli ehtiyatlar və digər mənbələr nəzərə alınmaqla, 2016-cı il üçün Tədbirlər Planına uyğun olaraq müvafiq işlərin həyata keçirilməsinə başlanılmışdır. İlk növbədə yerli əhəmiyyətli yolların təmiri və abadlaşdırılması, kəndlərarası yol infrastrukturunun inkişaf etdirilməsi, idman komplekslərinin tikintisi, şəhərdaxili küçələrin işıqlandırılması, şəhər istirahət parkının yenidən qurulması işlərinin davam etdirilməsi və bu kimi digər sosial məsələlərin həll edilməsi nəzərdə tutulur. Tərəfimizdən rayonda turizmin inkişaf etdirilməsi üçün bütün imkanlar araşdırılmış və məsələlərin həllinə nail olunması istiqamətində müvafiq tədbirlər görülür. Aqrar sahənin daha da inkişaf etdirilməsi üçün məqsədyönlü işlər aparılır, istehsal və xidmət obyektlərinin yaradılması, həmçinin kəndlərin abadlaşıdırılması üçün tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Cari ildə təhsil, səhiyyə və mədəni-maarif müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün bütün imkanlardan istifadə ediləcəkdir. Ayrı-ayrı ixtisaslardan olan müəllim və həkim kadrlara olan tələbatın ödənilməsi üçün əlaqədar respublika təşkilatları ilə birgə iş aparılacaqdır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayonun bütün ərazisinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi, qaz təchizatının yaxşılaşdırılması, yeni salınmış yaşayış massivlərinin və rayonun təbii qazı olmayan məntəqələrinin qazlaşdırılması üçün lazımi işlər görüləcək, Siyəzən şəhərində inşasına başlanmış su-kanalizasiya sisteminin tikintisinin başa çatması üçün bütün tədbirlər həyata keçiriləcəkdir. Büdcə gəlirlərinin artırılması üçün qanunvericiliyə uyğun olaraq bütün imkanlardan istifadə ediləcəkdir. Sahibkarlığın inikşaf etdirilməsi üçün daha münbit şərait yaradılacaq, rayona investisiyaların cəlb edilməsi üçün bütün imkanlar səfərbər ediləcək, görülmüş işlər nəticəsində yeni iş yerləri yaradılacaq, əhalinin məşğulluq səviyyəsi daha da yaxşılaşdırılacaq, bu barədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və Nazirlər Kabinetinə müntəzəm olaraq məlumatlar veriləcəkdir.

Sizi əmin edirəm ki, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən çoxşaxəli və uzunmüddətli strategiyaya uyğun olaraq hər yerdə olduğu kimi, rayonumuzda da sosial-iqtisadi sahədə nəzərdə tutulan bütün tədbirlər müvəffəqiyyətlə yerinə yetiriləcək və Siyəzən rayonu 2016-cı ili də uğurla başa vuracaqdır. Bu inamı bizə Azərbaycan Respublikası Prezidentinin ölkəmizdə həyata keçirdiyi uğurlu sosial-iqtsadi kursu verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edirik ki, biz siyəzənlilər bundan sonra da rayon iqtisadiyyatının dinamik inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində işləri davam etdirəcəyik.

## NAZİRLƏ GÖRÜŞ

Bildiyiniz kimi, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev yanvarın 28-də rayonumuzda olmuş, Siyəzən, Şabran, Xaçmaz və Quba rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan sonra nazir cənab Ə. Qarayev Siyəzən rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür. Mədəniyyət və Turizm naziri ilə rayon ictimaiyyətinin görüşünü Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov açmışdır.

Görüşə toplaşanları salamlayan Ə. Qarayev bildirmişdir ki, ölkə Prezidentinin tapşırığı ilə yerlərdə əhali ilə keçirilən belə görüşlər böyük əhəmiyyət kəsb edir. Bu, bizə problemlərlə, mövcud vəziyyətlə yaxından tanış olmağa, işimizi daha səmərəli qurmağa imkan verir.

Daha sonra nazir bir sıra məsələlərə də toxunaraq qeyd etmişdir ki, neçə illərdir dünya iqtisadiyyatı dərin böhran keçirir. Dünyada davam edən gərginlik Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərir. Ancaq iqtisadi çətinliklərin artığı indiki vaxtda belə, dövlət nəinki əhalinin sosial müdafiəsini gücləndirir, təxirəsalınmaz addımlar atır, ölkənin neftdən asılılığını minimuma endirmək üçün əsaslı islahatlar keçirmək istiqamətində konkret addımlar atır.

Ə. Qarayev çıxışında xüsusi vurğulamışdır ki, turizmin inkişafı baxımından Siyəzənin də perspektivləri vardır və biz insanların marağını bu işlərə cəlb etməliyik. Biz bu barədə düşünürük, hesab edirik ki, burada turizmin inkişafı eyni zamanda rayon üçün böyük imkanlar yaradır.

Görüşün sonunda Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab A. Hüseynov ictimaiyyətin nümayəndələri ilə görüşdüyünə, günün ən vacib və aktual məsələlərinə toxunduğuna görə nazir Ə.Qarayevə təşəkkürünü bildirdi.

«ÇIRAQ»

## 20 YANVAR-MİLLİ QÜRUR GÜNÜMÜZ

1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Kreml Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxan Azərbaycan xalqını cəzalandırmaq üçün qırğın törətdi. Həmin faciədən bizi 26 illik zaman kəsiyi ayırır.

1990-cı ilin Qanlı Yanvar hadisəsi ümumxalq faciəsi olmaqla yanaşı, həm də müstəqillik, azadlıq uğrunda xalqımızın apardığı milli-azadlıq hərəkatının zirvəsi kimi Azərbaycanın tarixinə əbədi həkk edildi. Cəmi bir il sonra, 1991-ci ildə xalqımız illər boyu arzusunda olduğu müstəqilliyini əldə edə bildi.

Məhz bu ağır günlərdə xalqımızın dahi oğlu, Ulu Öndər Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək kəskin bəyanat verdi, əsl günahkarların cəzalandırılmasını tələb etdi, Azərbaycanın haqq səsini bütün dünyaya çatdırdı.

Azərbaycan xalqı 20 Yanvar qurbanlarının xatirəsini bu gün də əziz tutur. Azərbaycan Prezidenti İlham Əliyev şəhid ailələrinin sosial problemlərinin həlli ilə bağlı mütəmadi olaraq konkret tədbirlər həyata keçirir, onlara lazımi diqqət və qayğı göstərir.

Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da 20 Yanvar faciəsinin 26-cı ildönümünə həsr olunmuş anım tədbiri keçirilmişdir. Şəhidlər Xiyabanında keçirilmiş anım mərasimində Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov başda olmaqla idarə, müəssisə və təşkilat rəhbərləri, əmək kollektivləri, ictimaiyyətin nümayəndələri şəhidlərin xatirəsini böyük ehtiramla yad etmişlər.

Mərasimdə vətən torpaqlarının müdafiəsi uğrunda döyüşlərdə həlak olmuş siyəzənli şəhidlərin məzarları ziyarət edilmiş, xatirə kompleksinin önünə əklillər, tər qərənfillər düzülmüşdür.

«ÇIRAQ»

## HƏMİŞƏ ÖN SIRADA

2 Fevral-Gənclər günü rayonumuzda da təntənəli şəkildə qeyd edilmişdir. Siyəzən Rayon İcra Hakimiyyətində bu münasibətlə keçirilmiş tədbirdə gənclərin ictimai həytda iştirakından, təhsil və idman sahəsindəki uğurlarından, qarşıda duran vəzifələrdən ətraflı danışılmışdır.

Tədbirdə rayon Gənclər və İdman idarəsinin rəisi Nadir Məmmədovun 2015-ci ilin yekunlarından bəhs edən hesabat məruzəsi dinlənilmişdir. Siyəzən şəhər 1 saylı tam orta məktəbin müəllimi Sevinc Mikayılova, Gilgilçay qəsəbə tam orta məktəbin direktoru Samir Baxşıyev, Heydər Əliyev Mərkəzinin direktoru Ramilə Seyidova, 4 saylı tam orta məktəbin müəllimi Tamerlan Qurbanov, Xəzər Universitetinin tələbəsi Emə Niftəliyeva çıxış edərək ölkəmizdə gənclərin hərtərəfli inkişafı sahəsində dövlət səviyyəsində görülən işlərdən danışmışlar. Çıxışlarda Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə xüsusi diqqət və qayğısından ətraflı bəhs edilmişdir.

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov gəncləri salamlamış, ölkəmizin inkişafı və tərəqqisi naminə gələcək fəaliyyətlərində onlara yeni-yeni uğurlar arzulamışdır.

Tədbirin sonunda ötən ildə əldə etdikləri nailiyyətlərə görə rayonumuzun idmançılarından bir qrupuna Fəxri fərmanlar və qiymətli hədiyyələr verilmişdir.

«ÇIRAQ»

## SƏYYAR QƏBULDAN QEYDLƏR

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynovun yerlərdə əhali ilə səyyar görüşləri davam edir. Belə görüşlərin keçirildiyi növbəti ünvan Eynibulaq kəndi idi.

Kənd sakinləri ilə səmimiyyətlə salamlaşdıqdan sonra hörmətli İcra başçısı onlara müraciətlə bildirdi ki, görüşə gəlməkdə məqsədimiz sizin problemlərinizi dinləyib, həllində yardımçı olmaqdır.

Kənd sakinlərindən Seyidağa Mirzəyev söylədi ki, həqiqətən, Ulu Öndərimiz hakimiyyətə gələndən sonra xalqımız böyük tərəqqi yolu keçibdir. Mövcud problemlərə gəldikdə isə kənd sakini yalnız su sarıdan çətinliklərin olduğunu dilə gətirdi. Digər məsələlərdən isə razılığını ifadə etdi.

Cənab başçı vətəndaşları diqqətlə dinləmiş, qarşıya çıxan problemlərin həlli ilə bağlı aidiyyəti şəxslərə tapşırıqlarını vermişdir.

Səyyar qəbuldan sonra Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı cənab Asif Hüseynov sakinlərə müraciətlə qeyd etdi ki, bolluğun açarı kəndlinin öz əlindədir Belə ki, kəndli üçün dövlət tərəfindən böyük güzəştlər müəyyən edilmişdir. Ona görə əhali işə cəlb olunmalıdır. Bu, həm məhsul bolluğu, həm də iş yerləri deməkdir.

İcra başçısı sakinlərə müraciətlə bildirdi ki, qış mövsümü ilə bağlı havalar müəyyən çətinliklər yaradır. Buna baxmayaraq bizim layihələrimiz var, icra olunacaq. Lakin elə məsələlər də var ki, bu gün tərəfimizdən həll edilə bilər. Biz bu işlərlə ardıcıl məşğul oluruq.

Qəbuldan sonra cənab başçı kəndi gəzmiş, problemləri ilə yerindəcə tanış olmuşdur.

«ÇIRAQ»

## Dəm qazı təhlükəsi ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin əhaliyə müraciəti

Qış mövsümü ilə əlaqədar əhalinin təbii qaza olan tələbatının artması fonunda qaz cihazlarından istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması dəm qazı təhlükəsi yaradır. Cümlə nəticələnə bilən bu təhlükə ilə üzləşməmək üçün aşağıda göstərilən qaydalara əməl edilməlidir.

-qaz cihazı saz və standartdara uyğun olmalı;

-cihaz olan məkanın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalı;

-havaçəkən sistem işləməli, nəfəslik açıq olmalı;

-hamam otağında ventilyasiya borusu, qapının aşağısında deliklər olmalı;

-tüstü bacaları ildə iki dəfə təmizlənməlidir.

**Yadda saxlayın! Dəm qazı iysizdir, hiss edilmir!**

Ondan zəhərlənmənin əlamətləri: baş ağrısı, baş gicəllənməsi, halsızlıq.

Dəm qazından zəhərlənmiş insanı təmiz havaya çıxarıb, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad etmək, təcili tibbi yardım çağırmaq lazımdır!

**Unutmayın: Qaydalara biganəlik-həyatımıza təhlükədir!**

**Təhlükə zamanı 112-yə zəng edin!**

## KONFRANS KEÇİRİLMİŞDİR

Dövlət başçısı Nazirlər Kabinetinin son iclasında bildirib ki, Azərbaycanda istehsal olunan məhsullarda qiymət artımı olmamalıdır. Prezident İlham Əliyev natəmiz insanlar və izbazlar tərəfindən məzənnə məsələsindən sui istifadə edilməsinə, süni bahalaşmaya son qoyulmasını və bununla bağlı çox ciddi cəza tədbirlərinin görülməsini tələb edərək aidiyyəti dövlət qurumlarına tapşırıqlar verib. Yanvarın 18-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərin həlli ilə bağlı müşavirədə dövlət başçısı bu məsələyə toxunaraq deyib: «Dövlət orqanları, prokurorluq, istehlak bazarına nəzarət edən orqanlar bu məsələ ilə ciddi məşğuldurlar. Görülən tədbirlər, o cümlədən verilmiş qərarlar nəticəsində çörəyin və unun qiyməti əhəmiyyətli dərəcədə aşağı düşmüşdür.»

Manatın məzənnəsində baş vermiş dəyişiklikdən istifadə edərək süni qiymət artımı, məqsədli mal qıtlığı və digər sui-istifadə hallarının qarşısının alınması üçün İqtisadiyyt Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi tərəfindən təsdiq edilmiş birgə Tədbirlər Planına müvafiq olaraq nəzarət tədbirləri davam etdirilir.

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin bir qrup əməkdaşı bu günlərdə rayonumuzda olmuşdur.

Rayonun aidiyyati idarə, müəssisə və təşkilatlarının nümayəndələrinin iştirak etdiyi konfransı giriş sözü ilə Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini Zəfər Əliyev açaraq qonaqları salamlamış, belə tədbirlərin xüsusi əhəmiyyət daşıdığını vurğulamışdır.

İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin rəis müavini Araz Əliyev istehlakçıların hüquqlarının qorunması istiqamətində son vaxtlar görülən işlərdən bəhs etmişdir. Ayrı-ayrı rayonlarda keçirilən konfranslarda istehlakçıların hüquqları ilə bağlı ətraflı məlumatlar verilir, maarifləndirmə işləri aparılır, narahatlıq doğuran məsələlər araşdırılır.

Daha sonra Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin şöbə müdirləri Kamran Novruzov, İlham Rüstəmov və Yusif Hüseynov «Markalama mal haqqında ilkin məlumat mənbəyidir», «Elektron ticarət zamanı nələri bilmək vacibdir?», «Qüsurlu mal satarkən istehlakçıların hüquqları» və digər mühüm məsələlərlə bağlı konfrans iştirakçılarına ətraflı və geniş məlumat vermişlər

**R. MURADOVA.**

### İTMİŞDİR

Allahverdiyeva Dünyaxanım Lazım qızına məxsus 597 nömrəli Torpağın Mülkiyyət Hüququna aid sənəd itdiyi üçün etibarsız sayılır.

Siyəzən Enerji Satışı və İstismarı Şəbəkəsinin adına verilmiş TH-810983 nömrəli texniki şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 440
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83